Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Əliyev Ələkbər Surxay oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 112 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 27 dekabr 2009-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə Əliyev Ələkbər Surxay oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına 26 dekabr 2009-cu ildə daxil olmuş 112 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən, araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Əliyev Ələkbər Surxay oğlu və digərləri 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqram ilə müraciət edərək, 93 saylı Bərdə şəhər seçki dairəsinin bir neçə seçki məntəqələrinin məntəqə seçki komissiyaları tərəfindən onların seçki hüquqlarının pozulmasını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimatın tələblərinin pozulması ilə verilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, rəyə gəldim:

1. Vətəndaş Əliyev Ələkbər Surxay oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 112 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 93 saylı Bərdə şəhər seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərar 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov